**Mustafayeva Ə.Ə.**♦

**DOI:** 10.25108/2304-1730-1749.iolr.2019.59.167-190

# Ər-arvad arasında əmlak münasibətlərinin qanuni rejim üzrə tənzimlənməsinin bəzi məsələləri

**Xülasə**: Azərbaycan Respublikasının qüvvədə olan Ailə Məcəlləsində ər-arvad arasında şəxsi münasibətlərin tənzimlənməsi ilə müqayisədə əmlak münasibətlərini tənzim edən normaların sayı daha çoxdur. Bu, təsadüfi deyildir. Belə ki, əmlak münasibətləri təbiət etibarı ilə qeyri-müəyyənliyi deyil, əksinə, dəqiq müəyyənliyi tələb edir. Digər tərəfdən, əmlak hüquqları həmişə könüllü qaydada deyil, müəyyən hallarda məcburi surətdə həyata keçirilir. Üstəlik, ailədə əmlak münasibətləri təkcə ər-arvadın deyil, həmçinin uşaqların, varislərin, kreditorların mənafeyi ilə bağlı olur. Bununla belə, ailədə əmlak münasibətlərinin heç də bütünlüklə hüquq normaları ilə tənzim edilmədiyini nəzərə almaq lazımdır. Məsələn, ər-arvad gündəlik ev, məişət qayğılarını (xarab olmuş soyuducunun, televizorun, paltar yuyan maşının təmiri və s.) və ya istirahət, müalicə və s. problemlərini bir-biri ilə şifahi qaydada razılaşdırıb həll edirlər. Digər tərəfdən, ər-arvad arasında əmlak münasibətləri təkcə Ailə Məcəlləsi ilə deyil, həmçinin Mülki Məcəllə ilə tənzimlənir.

Beləliklə, ər-arvadın birgə mülkiyyət münasibətləri eyni zamanda həm mülki, həm də ailə qanunvericiliyi ilə tənzimlənir. Mülki Məcəllənin mülkiyyətlə bağlı ümumi normaları həmin münasibətlərə tətbiq edilə bilər. Lakin ər-arvadın mülkiyyəti ilə bağlı ailə qanunvericiliyinin normaları Mülki Məcəlləyə zidd olmalı deyildir, əksinə, onu tamamlamalı və ya detallaşdırmalıdır. Bu zaman Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" 21 dekabr 2010-cu il tarixli konstitusiya qanununun müddəalarını nəzərə almaq lazımdır. Həmin Qanunun 2.5-

♦ **Mustafayeva Əsmər Ənvər qızı -** AMEA Hüquq və İnsan haqları İnstitutunun doktorantı (Azərbaycan). E-mail: Asmer79@gmail.com

ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Mülki Məcəlləsi mülki hüquq normalarını əks etdirən digər məcəllə və qanunlarla ziddiyyət təşkil etdikdə, Azərbaycan Respublikasının Mülki Məcəlləsi tətbiq edilir. Ailə qanunvericiliyi həmçinin ümumi qaydalardan, ailə münasibətlərinin spesifikliyindən irəli gələn müəyyən istisnaları müəyyən etməlidir. Ər-arvadın mülkiyyət münasibətlərini tənzim edən mülki və ailə qanunvericiliyi normalarını ümumi və xüsusi normalar kimi səciyyələndirmək olar. Ər-arvadın əmlak münasibətlərini tənzim edən normalar Ailə Məcəlləsində əhəmiyyətli dəyişikliyə məruz qalmış, bu növ münasibətləri tənzim edən prinsip mahiyyət etibarı ilə dəyişmişdir. Belə ki, əvvəlki qanunvercilik ər-arvadın əmlakının qanuni rejiminin onların razılığı ilə hər hansı şəkildə pozula bilinməzliyini nəzərdə tuturdusa, yeni qanunvericilikdə bu münasibətlər imperativ qaydada deyil, dispozitiv məzmunda müəyyən edilmişdir. Ər-arvadın əmlakının qanuni rejimi o zaman mövcud olur ki, tərəflər aralarındakı maddi məzmunlu münasibətlərin ya nikah müqaviləsi ilə tənzimlənməsini istəmirlər, ya nikah müqaviləsi ləğv edilmiş, yaxud da etibarsız sayılmışdır.

**Açar sözlər**: ailə; nikah; əmlak; ictimai münasibətlər; ümumi mülkiyyət; qanuni rejim; nikah müqaviləsi.

Ailə hüququ nöqteyi-nəzərindən bu və ya digər əmlakın ər-arvadın ümumi birgə mülkiyyətinə daxil edilməsi üçün müəyyənedici əhəmiyyət kəsb edən hallar kimi aşağıdakılar nəzərə alınır:

1) əmlakın ər-arvad tərəfindən birgə nikah dövründə onların ümumi vəsaitləri hesabına əldə edilməsi;

2) əmlakın hər iki tərəfin mülkiyyətinə birgə nikah dövründə daxil olması (əvəzsiz əqdlər);

3) nikah dövründə ər-arvadın ümumi əmlakı və ya hər birinin əmlakı, yaxud ər-arvadın hər hansı birinin əməyi hesabına ər-arvadın hər birinin əmlakının

dəyərini xeyli artıran vəsaitin qoyulması (əsaslı təmir, yenidən quraşdırma, avadanlığı dəyişdirmə və s.) [5].

Qanunvericilikdə tərəflər arasında nikahın mövcudluğunun əsas, daha dəqiq desək, yeganə sübutu kimi onun müəyyən edilmiş qaydada qeydə alınması göstərilmişdir. Bununla belə, Azərbycanda ilk Mülki Məcəllənin qəbul edildiyi 1923-cü il sentyabrın 8-dək dini ayinlər üzrə bağlanılmış nikahların tanınmaq, habelə SSRİ Ali Soveti Rəyasət Heyətinin 8 iyul 1944-cü il tarixli fərmanının qəbuluna qədər faktiki nikah münasibətinə daxil olmuş şəxslərin bu münasibətlərin əmələ gəlmə vaxtını göstərməklə nikahlarını rəsmiləşdirə bilmək imkanları olmuşdur [6, s. 45].

Qanunvericilik yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanılmış nikahı tanısa da, məhkəmə təcrübəsində faktiki nikah münasibətlərində olan tərəflərə münasibətdə Ailə Məcəlləsinin normalarının tətbiqinə rast gəlinir. Misal gətirək. Tərəflər 12 avqust 2015-ci ildən 23 fevral 2016-cı il tarixə kimi bir evdə faktiki ər-arvad kimi yaşamışlar. 23 fevral 2016-cı ildə iddiaçı (qadın) bu evdən çıxıb valideynləri evinə getmişdir. Həmin vaxt hamilə olmuş, ayrıldıqdan sonra bu faktiki münasibətdən bir uşaq doğmuşdur. İddia ərizəsində dəyəri 1200 manat olan qızıl boyunbağı, bilərzik, sırğa və üzük dəstinin, dəyəri 3000 manat olan brilliant qaşlı qızıl nişan üzüyün, dəyəri 1500 manat olan gül formalı brilliant qaşlı qızıl üzüyün, dəyəri 2000 manat olan səkkiz brilliant qaşlı qızıl üzüyün, dəyəri 700 manat qızıl sırğanın cavabdehdən alınıb ona verilməsini xahiş etmişdir. I instansiya məhkəməsi iddianı təmin etmişdir.

Məhkəmənin bu qərarından tərəflərin apellyasiya şikayətinə baxan Apellyasiya Məhkəməsi hesab etmişdir ki, məhkəmədə hər bir tərəf öz tələb və etirazlarının əsası kimi istinad etdikləri halları sübut etməlidir. Odur ki, iddiaçı əşyaların cavabdehin sahibliyində olmasını, cavabeh isə iddiaçının evdən gedərkən əşyaları özü ilə aparmasını sübut etməlidir. Apellyasiya məhkəməsinin mövqeyinə görə əşyanın saxlanıldığı yerdən aparıldığını təsdiq edən sübut təqdim

edilmədikdə, əşyanın saxlanıldığı yerdə qalmış olması təsdiq edilmiş sayılır. Qızıl-zinət əşyalarının cavabdehin evində saxlanılması ilə bağlı mübahisə olmamışdır. İddiaçının deməsinə görə, əşyaları cavabdehin yaşadığı evin şkafının içində qırmızı qutuda saxlamışdır. Cavabdeh bunu etiraf etmişdir. İş üzrə müəyyən olunmuşdur ki, iddiaçı evi tərk etdikdən 4 ay sonra buradan özünə məxsus olan əşyaları aparmışdır. Mübahisəli şəraitdə iddiaçınln bütün zinət əşyalarını toplayıb aparması, və cavabdehin buna imkan verməsi inandırıcı deyildir. Tərəflər az müddətdə, özü də qeyri-rəsmi ər-arvad kimi birgə yaşadıqlarından, cavabdehin iddiaçıya həmin hədiyyələri özü ilə aparmasına imkan verməsi inandırıcı deyildir. 2 ədəd qızıl-zinət əşyasının (qızıl qol saatı və üzərində xaç olan zəncir boyunbağı) iddia ərizəsində göstərilən digər 5 əşyadan fərqi odur ki, onları iddiaçıya cavabdeh hədiyyə etməmiş, bu əşyalar ailə münasibətlərindən əvvəl iddiaçıya məxsus olmuşdur. İddiaçının bu 2 əşyanı digər 5 əşya ilə eyni yerdə - cavabdehə aid olan evin şkafında, qutunun içində saxlamasını cavabdeh inkar etməmiş, hətta iddiaçını xaç formada boyunbağı gəzdirməkdə günahlandırmışdır. İddiaçının qızıl-zinət əşyaları barədə əsassız iddia irəli sürmək niyyəti olsaydı, həmin 2 əşyanın da cavabdehdə qaldığını iddia edə bilərdi. İddiaçı isə, əksinə, evi tərk edərkən həmin 2 əşyanı özü ilə götürdüyünü demişdir. Beləliklə, Bakı Apellyasiya Məhkəməsi təqdim edilmiş sübutlara əsasən, qızıl-zinət əşyalarının cavabdehin sahibliyində olduğunu müəyyən etmiş və 11 oktyabr 2017-ci il tarixli qərar ilə 1-ci instansiya məhkəməsinin qətnaməsini dəyişdirməyib, öz qüvvəsində saxlamışdır [2].

Göründüyü kimi, məhkəmələr faktiki nikah münasibətində olan tərəflərin hədiyyə şəklində əldə etdiyi əmlak üzrə mübahisəni AM-nin 34-cü maddəsinə uyğun şəkildə həll etmişlər.

M.D.Dəmirçiyeva ər-arvad arasında əmlak münasibətlərini iki qrupa ayırmışdır: a) ər-arvadın ümumi mülkiyyətindən yaranan əmlak münasibətləri (yəni nikah zamanı qazanılmış əmlak); b) qarşılıqlı maddi yardım münasibətləri (aliment öhdəlikləri) [3, s. 197]. Biz də öz növbəmizdə ər-arvad arasında əmlak

münasibətlərini iki qrupa bölürük: ər-arvadın mülkiyyət münasibətləri və aliment hüquq münasibətləri. Fikrimizcə, ər-arvadın mülkiyyət münasibətləri özünə ər-arvadın əmlakının qanuni rejimini, ər-arvadın mülkiyyətinin müqavilə rejimini və ər-arvadın öhdəlikləri üzrə məsuliyyətini müəyyən edən normaları daxil edir.

Ailə Məcəlləsinin VII fəsli və Mülki Məcəlləsinin 225-ci maddəsi ər-arvadın ümumi birgə mülkiyyətinin hüquqi tənziminə həsr olunmuşdur. Ailə Məcəlləsinin 31.1-ci maddəsinə əsasən, ər-arvadın birgə mülkiyyətinin rejimi onların əmlakının qanuni rejimi sayılır. Ailə Məcəlləsinin 32.1-ci maddəsində göstərilir ki, nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Bu müddəadan aşağıdakı nəticələri çıxarmaq mümkündür: 1) nikah müddətində əldə olunmuş əmlakın ümumi əmlaka aid edilməsini tələb edən şəxs bundan ötrü hər hansı sübut təqdim etmir; 2) nikah müddətində əldə olunmuş əmlakın bütün növləri, qanunla həmin əmlakın ümumi əmlak siyahısına daxil edilib edilməməsindən asılı olmayaraq, ümumi əmlak sayılır.

Ailə Məcəlləsinin 32.2-ci maddəsində ər-arvadın ümumi birgə mülkiyyətinə aşağıdakı əmlak növləri aid edilmişdir:

1) ər-arvadın hər birinin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri (şikəstlik, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ, maddi yardımın məbləği və s.);

2) ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit idarələrinə və s. kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq, nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak.

Milli qanunvericiliyimizdə ailə üzvləri arasında əmlak münasibətlərinin iki hüquqi rejimi - ailə əmlak münasibətlərinin tənzimlənməsinin 2 mümkün üsulu fərqləndirilmişdir: 1) əmlakın ümumi rejimi və 2) əmlakın ayrıca rejimi. Əmlakın ümumi rejimi onu ifadə edir ki, ümumi (paylı və birgə) mülkiyyətin iştirakçıları eyni mülkiyyətin həmmülkiyyətçiləri olmaqla qarşılıqlı razılıq əsasında ona sahibliyi, istifadəni və sərəncam verməni həyata keçirirlər. Ailə üzvlərinin əmlakının ayrıca (şəxsi) rejimi isə ər-arvadın, valideynlərin və uşaqların hər birinin şəxsən özünə məxsus olan əmlakları üzərində öz istəklərinə uyğun sahiblik, istifadə və sərəncam vermələrini nəzərdə tutur. Birgə mülkiyyətdə iştirakçıların payı əvvəlcədən bəlli olmur, bu pay həmin əmlakın bölünməsi və ya ayrılması zamanı bəlli olur. Ümumi birgə mülkiyyət münasibətlərinin ümumi paylı mülkiyyət münasibətlərindən fərqləndirici əlaməti onların daha çox şəxsi və etibarlılıq münasibətlərinə əsaslanmasıdır. Ümumi mülkiyyətin bu növündə payların məlum olmaması kriminalist alimlərə bu növ əmlaka birgə mülkiyyətçiləri tərəfindən qəsdin edilə bilinməsinin qeyri-mümkün olduğunu deməyə əsas vermişdir. Bu baxımdan ədəbiyyatda qeyd olunmuşdur ki, təqsirkara birgə mülkiyyət hüququ əsasında məxsus olan əmlak mülkiyyət əleyhinə olan cinayətin predmeti ola bilməz [4, s. 148].

Ümumən götürdükdə, Ailə Məcəlləsinin "Ər-arvadın birgə mülkiyyəti" adlanan 32-ci maddəsinin quruluş və məzmunu normaldır. Lakin maddədə razılaşmadığımız iki məqam vardır ki, onları diqqətə çatdırmaq istəyirik. Birinci qeydimiz AM-nin 32.2.1-ci maddəsi ilə bağlıdır. Həmin maddəyə əsasən, ər-arvadın hər birinin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri onların ümumi birgə mülkiyyətinə aiddir. Maddənin məzmunundan belə başa düşülür ki, ər-arvadın həm nikaha daxil olanadək, həm də nikah müddətində əldə etmiş olduğu bu əmlak növləri onların ümumi birgə mülkiyyətidir. Halbuki MM-nin 225.2-ci maddəsinə əsasən, nikaha girənədək ər-

arvaddan hər birinə mənsub olmuş əmlak onun öz mülkiyyəti sayılır. Təsadüfi deyildir ki, AM-nin ər-arvadın ümumi birgə mülkiyyət siyahısını nəzərdə tutan digər - 32.2.2-ci maddəsində əmlakın nikah dövründə qazanılmış olması təsbit olunmuşdur. İlk baxışdan bu xırda, əhəmiyyətsiz detal təsiri baxışlaya bilər. Əslində isə, bu məqam hüquqtətbiqetmə fəaliyətində ciddi qarışıqlığa gətirib çıxara bilər. Əlbəttə, sual oluna bilər ki, bəs indiyədək bu ciddi qarışıqlıq nə üçün baş verməmişdir? Çünki məhkəmə təcrübəsində həmin norma respublikamızın ailə və mülki qanunvericiliyi normalarının ümumi kontekstində tətbiq edilmişdir. Lakin formalaşmış təcrübəyə ümid edib, qanunvericilikdə ehtiyac olan dəqiqləşdirmənin aparılmaması düzgün yanaşma olmazdı. Odur ki, AM-nin 32.2.1-ci maddəsinin əvvəlində gələn "onların hər birinin" sözlərindən sonra "nikah dövründə" sözlərinin əlavə olunmasını təklif edirik.

Bu hissədə razılaşmadığımız digər məqam AM-nin 32.3-cü maddəsi ilə bağlıdır. Həmin maddəyə əsasən, nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzürlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) ümumi əmlak üzərində hüquqa malikdir. M.D.Dəmirçiyevanın fikrincə, bu norma əsas etibarı ilə işləməyən qadınların hüquqlarının müdafiəsinə yönəlmişdir. Qadınların ailədəki əməyi ərlə arvadın hüquq bərabərliyi prinsipinə əsasən işləyən kişinin (ərin) əməyi ilə bərabərləşdirilir [3, s. 202]. Fikrimizcə, ailə həyatının hüquqi əsası nikah sayılırsa, iqtisadi əsasını ər-arvadın mülkiyyəti təşkil edir. Lakin ailə daxilində mülkiyyət biznes, qazanc yeri deyil, ailə həyatı ehtiyaclarının təmin edilməsi vasitəsidir. Başqa sözlə, ailə kollektiv olsa da, əmək kollektivi deyildir, burada işçi və işəgötürən, sahibkar və onun tabeçiliyində çalışan yoxdur. Ailə əmlak münasibətləri ilə yanaşı, ilk öncə, şəxsi və şəxsi qeyri-əmlak münasibətlərinə, sevgi və məhəbbət kimi ülvi hisslərə əsaslanan bir ittifaqdır. Burada təkcə ər-arvad sevgisi, məhəbbəti deyil, həmçinin ana, ata olmaq arzusu, övlad sahibi olmaq, onları böyüdüb başa çatdırmaq, nəvə görmək və s. bu kimi mənəvi münasibətlərə əsaslanan bir mühit vardır. Odur ki, ailə həyatının

spesifikliyi bəzən ər-arvadın hər iksinin üzərinə işləmək, qazanc əldə etmək vəzifəsini qoymur. Buna bəzən heç ehtiyac da olmur (məsələn, ər-arvadın birinin qazancının ailənin dolanışığı üçün tam kifayətedici olması və digərindən ev qayğıları ilə məşğul olmasını xahiş etməsi və s.), bəzən isə mövcud şərait (ev təsərrüfatı ilə, ərə (arvada), uşaqlara qulluq etməklə məşğul olma, xəstə olma, həqiqi hərbi xidmətdə olma, tələbə olma və s.) ər-arvadın birinə işləmək və müstəqil qazanc əldə etmək imkanını vermir.

Lakin bütün bunlar ümumi əmlakın formalaşmasında iştirak edə bilməmiş ərin (arvadın) həmin əmlak üzərində mülkiyyət hüququnun olmamasını ifadə etməli deyildir. Bu mövqe həm də konstitusion müddəadan irəli gəlir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin I hissəsinə görə, hər kəsin mülkiyyət hüququ vardır. Həmin maddənin III hissəsinə əsasən, hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Göstərilən maddəyə müvafiq olaraq, mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Əslində AM-nin 32.3-cü maddəsində bu inkar olunmur, ər-arvadın ümumi əmlak üzərində mülkiyyət hüququ tanınır. Lakin həmin normada ər-arvadın ailədə hüquq bərabərliyinə malik olması prinsipi öz əksini tapmamışdır. Halbuki Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinin IV bəndində ər ilə arvadın hüquqlarının bərabər olması təsbit olunmuşdur. Odur ki, Ailə Məcəlləsinin 29.1-ci maddəsində göstərilmişdir ki, Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq, ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər. AM-nin 37.1-ci maddəsində də, ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı paylarının bərabər hesab edilməsi müəyyən edilmişdir. Qeyd edilənlərə əsasən, AM-nin 32.3-cü maddəsində üzürlü səbəblərə görə müstəqil qazancı olmayan ər-arvadın ümumi əmlak üzərində bərabər hüquqa malik olmasının təsbit

edilməsini məqsədəuyğun sayırıq. Bu məqsəd ilə həmin maddənin sonunda olan "hüquqa malikdir" sözlərindən əvvəl "bərabər" sözünün əlavə olunmasını təklif edirik.

Ailə Məcəlləsinin 32.2-ci maddəsindən göründüyü kimi, ər-arvada məxsus olan ümumi birgə əmlakın obyekt dairəsi kifayət qədər genişdir. Belə ki, ər-arvadın birgə yaşadıqları dövrdə qazandıqları bütün əmlak demək olar ki, onların ümumi birgə əmlakı sayılır. Bu əmlaka yaşayış evi, bağ evi, digər daşınmaz əmlak növləri, avtomaşın, mebel, məişət əşyaları, əmək haqqı, pensiya, pul-şey lotoreyasının uduşları, nikah zamanı ər-arvadın nisyə qaydada əldə etdiyi şeylər və s. aiddir. Nikah müddətində əldə edilmiş əmlak yalnız o halda ər-arvadın ümumi birgə mülkiyyəti sayılır ki, həmin əmlak öz təyinatına görə onların hər ikisinin maddi, mədəni tələbatının ödənilməsinə yönəldilmiş olsun [6, s. 70].

Rusiyada P.V.Kraşeninnikovun redaktorluğu ilə çap olunmuş "Ailə hüququ" dərsliyində ər-arvad tərəfindən əldə edilmiş əmlakın, o cümlədən əmlak hüquqlarının onların ümumi birgə mülkiyyət obyektinə aid edilməsi üçün iki şərtin lazım olduğu göstərilmişdir: 1) əmlak və ya ona hüquq nikah müddətində əldə edilməlidir; 2) ər-arvadın ümumi əmlakı onların ümumi birgə vəsaiti hesabına əldə edilməlidir [7, s. 42]. Rusiya qanunvericiliyində bu münasibətlər milli qanunvericiliyimizlə eyni cür tənzim edildiyindən, biz qeyd edilən ikinci şərt ilə razılaşmırıq. Belə ki, Ailə Məcəlləsinin 32.2.2-ci maddəsində ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən əmlak ər-arvadın birgə mülkiyyəti sayılsa da, 32.3-cü maddəsində üzürlü səbəblərə görə müstəqil qazancı olmayan ər-arvadın ümumi əmlak üzərində hüquqa malik olması təsbit olunmuşdur. Bundan əlavə, Azərbaycan Respublikası MM-nin 225.1-ci maddəsində ərlə arvadın nikah dövründə qazandıqları əmlakın onların ümumi mülkiyyəti olması müəyyən edilmişdir.

Ər-arvadın gəlirlərinin (qazancının) hansı andan ümumi əmlak sayıldığının müəyyən edilməsi vacib məsələlərdən biridir. Bu barədə, əsas etibarı ilə, üç mövqe

vardır. Bir mövqeyə görə, gəlirlər hesablandığı andan ümumi əmlaka çevrilir. Bu mövqe əmək və pensiya qanunvericiliyinin əmək haqqı, pensiya və ya müavinət almaq hüququnun yalnız müvafiq işçiyə, pensiyaçıya və ya müavinət alan şəxsə məxsus oması müddəasına ziddir. Sahibkarlıq gəlirlərinin əldə edilməsi zamanı da eyni vəziyyət yaranır; ər-arvad bu mərhələdə öz payını tələb etmək hüququna malik olmur. İkinci mövqeyə görə, ər-arvadın gəlirləri ailəyə gətirildiyi (daxil edildiyi) andan onların ümumi birgə mülkiyyətinə çevrilir. Buna əks arqument kimi qeyd edilir ki, belə halda ailəyə gətirilməyən gəlir hər bir halda ər-arvadın ayrıca əmlakı sayılacaqdır. Digər tərəfdən, əldə olunmuş gəlirlərin bütün hallarda ailəyə gətirilməsi mütləq deyildir, tamamilə mümkündür ki, ər (arvad) gəlirlərini birbaşa qaydada bankda mövcud olan hesablarına köçürsünlər. Belə halda həmin hesab ər-arvadın ayrıca əmlakı sayılacaqdır. Üçüncü mövqeyə görə isə, ər (arvadın) gəlirləri onların hər hansı biri tərəfindən əldə edildikdən sonra ümumi birgə mülkiyyətə çevrilir.

Hesab edirik ki, aralarında nikah müqaviləsi olmayan, əmlak münasibətlərinin qanuni rejimə əsaslandığı ailə üzvlərinin, konkret olaraq ər-arvadın hər birinin gəlirinin miqdarı müxtəlif ola bilər: biri ailənin yeganə və ya əsas gəlir gətirəni, digəri ailənin ev, məişət qayğılarını və ya bu işlərin əsas yükünü çəkən şəxs ola bilər. Yaxud ər-arvadın biri vicdanlı, digəri isə vicdansız ola bilər. Vicdanlı tərəf əldə etdiyi gəlirin böyük hissəsini ailə mənafeyinə, vicdansız tərəf isə şəxsi mənafeyinə yönəldə bilər. Bu cür halların siyahısını xeyli uzatmaq olar. Hətta ər-arvaddan biri müəyyən səbəblərdən ümumi birgə əmlakın formalaşmasında, artırılmasında iştirak etməyə bilər. Təsadüfi deyildir ki, Ailə Məcəlləsinin 32.3-cü maddəsində göstərilir ki, nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzürlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) da ümumi əmlak üzərində hüquqa malikdir. Bu maddənin məzmunundan aydın olur ki, nikah dövründə ev təsərrüfatı ilə, o cümlədən uşaqlara qulluq etməklə məşğul olma müstəqil qazancı olmayan ər-

arvadın ümumi əmlak üzərində hüquqa malik olmasını müəyyən edən üzürlü səbəblərdir. Lakin qanunverici müstəqil qazancı olmayan ər-arvadın ümumi əmlak üzərində hüquqa malik olmasını şərtləndirən üzürlü səbəblərin siyahısını açıq saxlamışdır. Belə üzürlü səbəblərə ər-arvadın xəstəliyi, iş yeri tapa bilməməsi, təhsil alması və s. aid ola bilər. Ona görə də biz sonuncu mövqeyi daha düzgün sayaraq hesab edirik ki, ər-arvadın gəliri əldə edildiyi andan onların ümumi birgə mülkiyyətinə çevrilir.

Ər-arvadın ümumi birgə mülkiyyətinə bu növ mülkyyətin bütün əlamətləri xasdır. Azərbaycan Respublikası MM-nin 213-cü maddəsi ümumi mülkiyyətin anlayışı və onun əmələ gəlməsi əsaslarına həsr olunmuşdur. Bu maddəyə əsasən, iki və ya bir neçə şəxsin mülkiyyətində olan əşya onlara ümumi mülkiyyət hüququ əsasında mənsubdur. Ümumi mülkiyyətin subyekt dairəsinin minimum həddində məhdudiyyət var: bu, ən azı iki nəfər olmalıdır, maksimim sayında isə məhdudiyyət yoxdur: bu, üç, beş, on, iyirmi, yüz nəfər və ya bundan da çox sayda ola bilər. Belə olan halda MM-nin 213-cü maddəsində "bir neçə şəxs" ifadəsindən istifadə olunması nə dərəcədə düzgündür? Qeyd edək ki, Rusiya Federasiyası MM-nin "Ümumi mülkiyyətin anlayışı və əmələ gəlmə əsasları" adlı 244-cü maddənin birinci hissəsi respublikamızın MM-nin 212.1-ci maddəsinin məzmunu ilə eynidir. Burada da "iki və ya bir neçə şəxs" ifadəsindən istifadə olunmuşdur. "Bir neçə" sözü nitq hissəsinə görə saydır, qeyri-müəyyən miqdar sayıdır, yəni əşyanın dəqiq olmayan miqdarını bildirir. Etimoloji baxımdan isə "bir neçə" sözü, qəbul olunmuş mövqeyə görə, üç və daha çoxu, lakin ondan cox olmayan sayı nəzərdə tutur. Çünki ondan çox miqdarın ifadəsi üçün digər sözlərdən (məsələn, çoxlu, onlarla və s.) istifadə olunur. Razılaşırıq ki, "bir neçə" sözünün metrik (miqdar) əlaməti dəqiq müəyyn edilməmişdir, onun minimum sərhəddi iki rəqəmindən başlayır, lakin maksimum sərhəddi on rəqəmində qurtara bilər. Odur ki, "bir neçə" sözünün "iki və daha çox" sözü ilə əvəz edilməsi məqsədəuyğundur. Belə ki, "iki və daha çox" sözündə minimum say ikidir, maksimum sayın həddində isə məhdudiyyət yoxdur.

Bu, on, iyirmi, yüz və daha çox ola bilər. Qeyd edilənlərə əsasən, MM-nin 213-cü maddəsində "iki və ya bir neçə şəxsin" sözünün "iki və ya daha çox şəxsin" sözü ilə əvəz edilməsini təklif edirik.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2016.

2. Bakı Apellyasiya Məhkəməsinin arxivi. İş № 2(103)-9464/2017.

3. Dəmirçiyeva M.D. Azərbaycan Respublikasının ailə hüququ. Bakı, Qanun, 2008.

4. Əliyev N.K. Qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilən talama əməlləri ilə cinayət-hüquqi mübarizə. «Hüquq ədəbiyyatı» nəşriyyatı. Bakı, 2006.

5. Ərlə arvad arasında əmlak münasibətləri əsasən Ailə Məcəlləsi ilə tənzimlənir [Elektron mənbə]: http://anl.az/down/meqale/uc_noqta/2014/iyun/374606.htm

6. Manayev Q.İ. Sovet ailə hüququ. Dərslik, Bakı, ADU nəşriyyatı, 1989.

7. Семейное право: Учебник / Б.М. Гонгало, П.В. Крашенинников, Л.Ю. Михеева и др.; под ред. П.В. Крашенинникова. М.: Статут, 2008.